AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
14 01 2020-ci il tarixli F-427 № -li
əmri ilə təsdiq edilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ VƏTƏNDAŞLARIN MÜRACİƏTLƏRİ İŞİ VƏ KOMMUNİKASİYA ŞÖBƏSİ

ƏSLİ İLƏ DÜZDÜR

"Kargüzar"
ixtisası üzrə
Təhsil Proqramı (Kurikulum)

Bakı – 2020

“Kargüzar” ixtisası üzrə Təhsil Proqramı (Kurikulum)

1. **Təsnifat üzrə ixtisasın şifri (kodu):** 030102
2. **Məşğulluq təsnifatında kodu:** 1219
3. **Milli kvalifikasiyalar səviyyəsi:** 3
4. **Peşə təhsili pilləsi:** İlk peşə təhsili
5. **İxtisasın qrupu:** Kargüzarlıq
6. **İxtisasın əhatə etdiyi sahələr:** Sənətşünaslıq, mədəniyyət və incəsənət
7. **Qəbul şərtləri:** Ən azı ümumi orta təhsil
8. **Tədris müddəti:** Ümumi orta təhsil bazasından: 1 il, tam orta təhsil bazasından 6 ay
9. **Attestasiya:** Tələbələrin qiymətləndirilməsi “Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası”na uyğun həyata keçiriləcək.

İxtisasın tədris planı - modulların siyahısı

Təhsil müddəti: 1 il (ümumi orta təhsil bazası)							
İxtisas: Kargüzar							
№	**Modullar/Fənlər**	**Saatların miqdarı**	**Kurs üzrə həftəlik saatların miqdarı**				
			Həftələr				
			15	**5**	**7**	**8**	**1**
1	Ana dilində ünsiyyət	35	2	1			
2	Xarici dildə ünsiyyət	35	2	1			
3	Hesablama əməliyyatları	30	2				
4	İnformasiya texnologiyaları	30	2				
5	Şəxsi inkişaf və karyera planlaşdırması	20	1	1			
6	Peşə etikası	30	1	3			
7	Sahibkarlıq	30	1	3			
8	Estetika və mədəni özünüifadə	20	1	1			
9	Fiziki tərbiyə	40	2	2			
10	Çağırışaqədərki hazırlıq	40	2	2			
	1-ci bölmə üzrə cəmi	**310**	**16**	**14**			
	İxtisas kursu (nəzəri)	**290**	**14**	**16**			
11	İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları	25	1	2			
12	Kargüzarlıq işinin təşkili	80	4	4			
13	Elektron sənədlərin mübadiləsi	80	4	4			
14	Katiblik xidmətinin təşkili	45	2	3			

15	Cari arxiv sənədlərinin sistemləşdirilməsi	60	3	3			
	İstehsalat təlimi	**372**	**6**	**6**	**36**		
	İstehsalat təcrübəsi	**355**				**40**	**35**
	2-ci bölmə üzrə cəmi	**1017**	**20**	**22**	**36**	**40**	**35**
	Məsləhət saatları	**27**					
	Yekun: Tələbələrin məcburi maksimum dərs yükü	**1354**	**36**	**36**	**36**	**40**	**35**

Vaxt büdcəsi üzrə ümumi məlumat (həftələrlə)

Təhsil müddəti	I yarım il	Qış tətili	II yarım il	Dövlət buraxılış imtahanı	Bayram günləri	Cəmi
1 il	**15**	**1**	**21**	**1**	**2**	**40**
Yekun	**15**	**1**	**21**	**1**	**2**	**40**

Təhsil müddəti: 6 ay (tam orta təhsil bazası)						
İxtisas: Kargüzar						
№	Modullar/Fənlər	Saatların miqdarı	Kurs üzrə həftəlik saatların miqdarı			
			Həftələr			
			13	6	6	1
1	Ana dilində ünsiyyət	38	2	2		
2	İnformasiya texnlogiyaları	38	2	2		
3	Peşə etikası	38	2	2		
4	Şəxsi inkişaf və karyera planlaşdırması	38	2	2		
	1-ci bölmə üzrə cəmi	**152**	**8**	**8**		
	İxtisas kursu (nəzəri)	**285**	**15**	**15**		
5	İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları	19	1	1		
6	Kargüzarlıq işinin təşkili	76	4	4		
7	Elektron sənədlərin mübadiləsi	76	4	4		
8	Katiblik xidmətinin təşkili	57	3	3		
9	Cari arxiv sənədlərinin sistemləşdirilməsi	57	3	3		
	İstehsalat təlimi	**323**	**17**	**17**		
	İstehsalat təcrübəsi	**240**			**40**	
	2-ci bölmə üzrə cəmi	**848**	**32**	**32**	**40**	**0**
	Məsləhət saatları	**24**				
	Yekun: Tələbələrin məcburi maksimum dərs yükü	**1024**	**40**	**40**	**40**	**0**

Vaxt büdcəsi üzrə ümumi məlumat (həftələrlə)

Təhsil müddəti	I yarım il	İmtahanlar	Bayram günləri	Cəmi
6 ay	**25**	**1**	**1 həftəyədək**	**27**
Yekun	**25**	**1**	**1**	**27**

Modulların spesifikasiyası

Modulun adı: Ana dilində ünsiyyət
Modulun kodu: 1
Təlim nəticəsi 1: Peşəkar ünsiyyəti təhlil edir.
Təlim nəticəsi 2: Peşə məsələləri ilə bağlı şifahi ünsiyyət qurur.
Təlim nəticəsi 3: Peşə məsələləri ilə bağlı yazılı ünsiyyət qurur.
Təlim nəticəsi 4: Peşə məsələləri ilə bağlı yazılı materiallardan istifadə edir.
Modulun adı: Xarici dildə ünsiyyət
Modulun kodu: 2
Təlim nəticəsi 1: Gündəlik məsələlər, təhsil, iş, iş yerində sağlamlıq və təhlükəsizlik mövzularında ünsiyyət qurmağı və özünü ifadə etməyi bacarır.
Təlim nəticəsi 2: Gündəlik məsələlər üzrə baza səviyyəsində ünsiyyət qurmağı bacarır.
Təlim nəticəsi 3: Müasir texnologiya ilə bağlı terminləri bilir və diskusiyalar aparmağı bacarır.
Modulun adı: Hesablama əməliyyatları
Modulun kodu: 3
Təlim nəticəsi 1: Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirir.
Təlim nəticəsi 2: Sadə hesablamalar aparır.
Təlim nəticəsi 3: Sadə qrafik, cədvəllər hazırlayır və məsələlərin həllində onlardan istifadə edir.
Təlim nəticəsi 4: Məsələlərin həllində sadə cəbri qaydaları tətbiq edir.
Təlim nəticəsi 5: Sadə təsviri statistikadan istifadə edir.
Modulun adı: İnformasiya texnologiyaları
Modulun kodu: 4
Təlim nəticəsi 1: İnternetdə məlumatları tapmağı, qiymətləndirməyi və idarə etməyi bacarır.
Təlim nəticəsi 2: Sosial media vasitələrindən istifadə edir.
Təlim nəticəsi 3: Rəqəmsal məzmun hazırlayır.
Təlim nəticəsi 4: İT-dan təhlükəsiz şəkildə istifadə üsullarını tətbiq edir.

Təlim nəticəsi 5: Sadə texniki problemləri həll edir.
Modulun adı: Şəxsi inkişaf və karyera planlaşdırması
Modulun kodu: 5
Təlim nəticəsi 1: Azərbaycan cəmiyyətinin xüsusiyyətləri və əsas qanunvericililik sənədlərini şərh edir.
Təlim nəticəsi 2: Dövlət və özəl müəssisələrin fərqini və onların əsas xüsusiyyətlərini təhlil edir.
Təlim nəticəsi 3: Karyera məqsədlərini müəyyən edir və müasir iş axtarma və müraciət üsullarından istifadə etməyi bacarır.
Təlim nəticəsi 4: Ətraf mühitin mühafizəsi və yanğınsöndürmə vasitələrinə dair ilkin tədbirləri tətbiq edir.
Modulun adı: Peşə etikası
Modulun kodu: 6
Təlim nəticəsi 1: Peşəkarlıq prinsiplərini bilir.
Təlim nəticəsi 2: Vaxtdan səmərəli istifadə etməyi bacarır.
Təlim nəticəsi 3: Qrup daxilində səmərəli işləməyi bacarır.
Təlim nəticəsi 4: İş yerində davranış qaydalarını təhlil etməyi bacarır.
Modulun adı: Sahibkarlıq
Modulun kodu: 7
Təlim nəticəsi 1: Sahibkarlıq ideyalarını, imkanlarını müəyyən edir və qiymətləndirir.
Təlim nəticəsi 2: Sadə biznes layihəsini hazırlayır.
Təlim nəticəsi 3: Sahibkarlıq ideyalarını necə həyata keçirməli olduğunu göstərir.
Modulun adı: Estetika və mədəni özünüifadə
Modulun kodu: 8
Təlim nəticəsi 1: Azərbaycanın mədəniyyət və incəsənət xadimlərinin əsas əsərlərini şərh edir.
Təlim nəticəsi 2: Dünya incəsənət nümunələrini və məşhur mədəniyyət və incəsənət

xadimlərinin əsərlərini şərh edir.
Təlim nəticəsi 3: Kreativlik və estetika anlayışlarını təhlil edərək onlardan istifadə edir.
Təlim nəticəsi 4: Etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə edir.
Modulun adı: Fiziki tərbiyə
Modulun kodu: 9
Təlim nəticəsi 1: Hərəki vərdiş və bacarıqları formalaşdıran müxtəlif statik və dinamik hərəkətləri sadə üsullarla icra edir.
Təlim nəticəsi 2: Fiziki tərbiyə prosesində intizam və rejim qaydalarına əməl edir, birgə fəaliyyət bacarıqları nümayiş etdirir.
Təlim nəticəsi 3: İdman oyunlarını, o cümlədən milli idman oyunlarını və onların növlərini təqdim edir.
Modulun adı: Çağırışaqədərki hazırlıq
Modulun kodu: 10
Təlim nəticəsi 1: Azərbaycan Respublikasının Silahlı Qüvvələrində istifadə olunan hərbi texnika və sursatlar haqqında zəruri məlumatlara malik olduğunu nümayiş etdirir
Təlim nəticəsi 2: Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin nizamnamələrində təsbit olunmuşəsas müddəaları mənimsədiyini, tibbi yardım və mülki müdafiəbacarıqlarına, topoqrafik vərdişlərə yiyələndiyini nümayiş etdirir.
Təlim nəticəsi 3: Mülki müdafiə, sıra təlimi və fiziki hazırlığa aid normativləri yerinə yetirir, onlarınicrası zamanı qrup və komanda tərkibindəəlaqəli fəaliyyət göstərir.
Təlim nəticəsi 4: Qeyri-müəyyən şərait və hallarla əlaqədar yaranmış vəziyyətlərdə problemləri həll etmək üçün üsul və vasitələrdən istifadə edir.
Modulun adı: İş şəraitində əmək, təhlükəsizlik və sağlamlıq qaydaları
Modulun kodu: 11
Təlim nəticəsi 1: Əməyin mühafizəsinin hüquqi və təşkilati əsaslarını bilir.
Təlim nəticəsi 2: Yanğından mühafizənin əsasları haqqında bilir.
Təlim nəticəsi 3: Elektrik mühafizəsinin əsaslarını anlayır.
Təlim nəticəsi 4: İş şəraitində sağlamlıq qaydalarını bilir.

Modulun adı: Kargüzarlıq işinin təşkili
Modulun kodu: 12
Təlim nəticəsi 1: Müəssisə və təşkilatlarda kargüzarlıq işinin təşkili qaydasını bilir.
Təlim nəticəsi 2: Sənədləri tərtib etməyi, çap edib çoxaltmağı və rəsmiləşdirməyi bacarır.
Təlim nəticəsi 3: Sənədi arxivə təhvil vermək üçün hazırlamağı, onu arxivə təhvil verməyi və saxlamağı bacarır.
Modulun adı: Elektron sənədlərin mübadiləsi
Modulun kodu: 13
Təlim nəticəsi 1: Arxiv sənədlərini elektronlaşdırmağı bacarır.
Təlim nəticəsi 2: İnformasiya şəbəkəsi və bazası yaradılması işini təşkil edir.
Təlim nəticəsi 3: Azərbaycan Respublikası Milli arxiv fondunun məzmunu və tərkibi haqqında məlumatların əldə olunması üçün axtarış təşkil edir.
Modulun adı: Katiblik xidmətinin təşkili
Modulun kodu: 14
Təlim nəticəsi 1: Katibin işinin təşkilini və iş prinsipini bilir.
Təlim nəticəsi 2: Katibin hüquq və vəzifələrini, işə götürülmə şərtlərini bilir.
Modulun adı: Cari arxiv sənədlərinin sistemləşdirilməsi
Modulun kodu: 15
Təlim nəticəsi 1: Müəssisə və təşkilatlarda arxiv işinin təşkili, sənədlərin saxlanması qaydası və müddətini bilir.
Təlim nəticəsi 2: Arxivdən istifadə qaydalarını icra edir.
Təlim nəticəsi 3: Sənədlərin məhv edilmə qaydasını icra edir.
Modulun adı: İstehsalat təlimi
Modulun kodu: 16
Təlim nəticəsi 1:İş yerində təhlükəsizlik qaydalarını öyrənir.

Təlim nəticəsi 2: Müəssisə və təşkilatlarda kargüzarlıq işini təşkil edir.
Təlim nəticəsi 3:Katibin işinin təşkilini bilir.
Təlim nəticəsi 4: Sənədlərin arxivə verilmə prosesini bilir.
Təlim nəticəsi 5. Arxiv sənədlərini elektronlaşdır
Təlim nəticəsi 6: İnformasiya şəbəkəsi və bazası yaratmağı bacarır.
Modulun adı: İstehsalat təcrübəsi
Modulun kodu: 17
Təlim nəticəsi 1: İş yerində təhlükəsizlik qaydalarını tətbiq edir;
Təlim nəticəsi 2: Müəssisə və təşkilatlarda kargüzarlıq işini təşkil edir
Təlim nəticəsi 3: Arxiv sənədlərini elektronlaşdırır.
Təlim nəticəsi 4: İnformasiya şəbəkəsi və bazası yaradır.